**UOT 94 (479, 24)**

# DEMOKRATİYA İLƏ ZORAKILIQ BİR ARAYA SIĞMIR

**İ.X.ZEYNALOV, X.R.SƏFƏROVA**
***Bakı Dövlət Universiteti***
***Zeynalov_Ibrahim@hotmail.com***

*Elmi məqalədə aşağıdakı problemlər maraqlı və zəngin mənbələr, sənədlər və materiallar əsasında şərh olunur: Bakı faciəsinə aparan yollar, onun səbəbləri və 1990-cı il 20 yanvar qanlı Bakı faciəsinin tarixi və onun siyasi kökləri. 20 yanvar faciəsinin Azərbaycan xalqının istiqlal uğrunda mübarizəsində yeni səhifə açdığı izah edilir. 1990-cı il 20 yanvar "Bakı əməliyyatı" və onun nəticələri açıqlanır. Həmçinin 20 yanvar Bakı faciəsinə münasibətdə Qərb dövlət rəhbərlərinin qeyri-obyektiv mövqeləri şərh edilməklə tənqid olunur. 20 yanvar faciəsinin Azərbaycan xalqına qarşı törədilmiş cinayət kimi qiymətləndirilməsində və bu faciənin bütün dünyaya bəyan edilməsində Ümummilli lider Heydər Əliyevin rolu xüsusilə vurğulanır. Məqalədə 20 yanvar faciəsinin ibrət dərslərinin şərhinə də xüsusi yer verilir.*

**Açar sözlər:** 20 Yanvar faciəsi, Sovet imperiyasi, erməni təcavüzü, Moskvanın "Bakı əməliyyatı", "Bakı faciəsi", məkrli siyasət, SSRİ rəhbərliyi, Qərb dövlətləri, "SSRİ-nin daxili işi", Sovet qoşunları, ibrət dərsi.

Sovetlər dövründə humanitar elmlər sovet ideoloji sistemi kontekstində inkişaf etmiş, kommunist ideologiyasının təsirindən qurtara bilməmişdir. Bu səbəbdən, də tariximizin obyektiv, tarixilik prinsipləri əsasında yazılması mümkün olmamış, tariximizin çox mühüm səhifələri saxtalaşdırılmış, bəşəri dəyərlərdən uzaq düşmüşdür (1, 1).

Bu gün ölkədə yaranmış ictimai siyasi və mənəvi mühit bizə ictimai elmlərin yeni şəraitdəki rolunu dəqiqliklə müəyyənləşdirməyə imkan verir (1). Keçmiş illərin səhflərini və əyintilərini düzgün qiymətləndirib aradan qaldırmaqla yanaşı, biz tarix elminin elə bir inkişafını təmin etməliyik ki, o, bugünkü şəraitdə kəsb etdiyi (1, 2) missiyaya uyğun olsun. Tarixi həqiqətlər aşkar edilməli, sovet dövründə qadağa qoyulmuş bütün problemlər yenidən tədqiqat obyektinə çevrilməlidir. Azərbaycan xalqının və onun qurduğu dövlətin tarixinin araşdırılmayan bircə səhifəsi də qalmamalıdır (1, 3).

Demokratiya ilə zorakılıq bir araya sığmır, sığarsa, onda o qanlı faciələrə, kütləvi qırğınlara, repressiyaya səbəb olar, necə ki, 1990-cı il 20 yanvarda Azərbaycanda baş verdi.

Demokratiya, sosializmin yeniləşdirilməsi, "yenidənqurma" siyasəti əslində çökməkdə olan totalitar rejimə əsaslanan, inzibati amirlik sistemi ilə idarə olunan Sovet imperiyasını xilas etməyə yönəlmişdi.

20 Yanvar faciəsinin törədilməsindən 21 il keçməsinə baxmayaraq, hələ indiyədək bu hadisənin səbəbləri açılmamış, gizli olaraq qalmaqdadır, cinayətkarın aşkar edilməsi, cəzalandırılması mümkün olmamışdır. Xalqımız o qanlı qırğın gecəsini, görünməmiş vəhşilikləri daim nifrətlə xatırlayır, o günlərin ağrısı ilə yaşayır.

XX əsrin 80-ci illərinin sonu və 1990-cı ilin yanvarında Azərbaycanda siyasi gərginlik daha da artmış, separatçı-terrorçu ermənilər havadarlarının himayəsi ilə getdikcə azğınlaşırdılar.

Çökməkdə olan Sovet imperiyası- Moskva isə bunlara göz yumur, hətta Azərbaycan torpaqlarının işğalına, azərbaycanlılara divan tutmasına, vəhşiliklərə müxtəlif yollarla himayədarlıq edirdilər.

Mərkəzin məkirli, qərəzli siyasətindən ibrət dərsi alan Azərbaycan xalqı artıq dərk edirdi ki, SSRİ dövləti erməni təcavüzü ilə bağlı ona heç bir kömək göstərməyəcək, yalnız çıxış yolu imperiya boyunduruğunu sındırmaqda və müstəqillik əldə etməkdədir.

Moskva isə azadlıq əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşırdı. Respublikanın daxilində isə xalq Azərbaycan rəhbərliyinə olan inamını itirmişdi.

Respublika rəhbərliyi Moskvanın əlində kobud bir alətə çevrilərək xalq hərəkatını boğmaq, Azərbaycanın müstəqilliyinə doğru gedən yolu bağlamaq üçün imperiya rəhbərlərinin müdhiş bir qırğın planının hazırlanmasında yaxından iştirak etdilər.

Digər tərəfdən M.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi SSRİ-nin dağılmasının qarşısını almaq, azadlıqlarını bərpa etmək bərpa etmək məqsədilə mübarizə aparan xalqlara "dərs vermək" üçün müstəqillik uğrunda mübarizənin ən güclü mərkəzi olan Bakı sınaq meydanı seçildi (2, 1).

20 yanvar "Bakı əməliyyatı" əslində SSRİ rəhbərliyinin xx əsr boyu davam edən türkdilli xalqlarla bağlı həyata keçirdiyi şövinizm siyasətinin davamı idi. XX əsrin 40-cı illərinin əvvəllərində türkdilli qaraçaylılar, balkarlar, Krım tatarları, məhsəti türkləri kütləvi şəkildə öz ata- baba yurdlarından deportasiya edildilər. 80-cı illərin sonuna yaxın Moskvanın hiyləsi ilə Mərkəzi Asiyada, yerli əhali ilə məhsəti türkləri arasına ədavət toxumu səpildi, məhsəti türkləri döydürüldü, Alma-Ata hadisələri, 1990-cı ilin aprelində isə Tiflisdə qırğın törədildi (5, 1).

M.Qorbaçovun hakimiyyəti dövründə bir tərəfdən SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı daha da güclənir, digər tərəfdən ölkədə türkdilli respublikaların konstitusiya, milli-siyasi hüquqları pozulur, milli respublikaların demokratik, nüfuzlu və təcrübəli rəhbərləri vəzifələrdən uzaqlaşdırılır, müdafiəsiz qalmış həmin xalqlara qarşı təzyiqlər və hücumlar başlayırdı.

Araşdırmalar göstərir ki, XX əsrdə SSRİ rəhbərliyinin Azərbaycana qarşı şovinist, millətçi siyasətinin tarixi və sosial-siyasi kökləri və səbəbləri daha dərindən öyrənilməlidir. Bu ondan ibarətdir ki, Moskvanın imperiya siyasətini şərtləndirən bir sıra amillərin – müsəlman, türk və Qafqaz amilləri bu respublikada birləşdirilmişdi.

Azərbaycanlılara qarşı XX əsr boy davam edən soyqırımı, deportasiyalar, Azərbaycan ərazilərinin zorla qoparılıb Ermənistana verilməsi siyasətinin də əsasını bu təşkil edirdi.

20 yanvar hadisəsindən uzun illər keçsə də, faciənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif ziddiyyətli fikirlərlə, rəylərlə çözülsə də, bütün əks mövqelər bir nöqtədə cəmləşir: bu qanlı faciə günündə Azərbaycan xalqı XX əsrin böyük bir zaman kəsiyində qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini bütün dünyaya nümayiş etdirdi.

20 yanvar faciəsinə tarixçilik prinsipindən yanaşsaq görərik ki, 20 yanvara aparan yol xx əsrin 80-ci illərinin sonlarından başlanır (3, 1).

Xalqımızın 1988-ci ildən başlayaraq öz ərazi bütövlüyünü qoruyub saxlamaq uğrunda mübarizəsi istiqlal uğrunda milli-azadlıq hərəkatına çevrildi.

1988-1989-cu illərdə Azərbaycanın sərhədlərində, xüsusilə də SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz, məqsədli, məkrli siyasətindən ruhlanan erməni separatçılarının Dağlıq Qarabağdakı hərəkətlərinin qarşısının alınması xalqımızın milli mübarizə ruhunu, milli özünüdərk hissini daha da yüksəltdi.

Məhz, Azərbaycanda getdikcə güclənən istiqlal hərəkatının qarşısını almaq və bununla SSRİ-nin digər türkdilli xalqlarına "ibrət dərsi vermək" üçün imperiya rəhbərləri 20 Yanvar faciəsini törətdilər.

Hələ 1990-cı ilin yanvarın ortalarından başlayaraq Bakı ətrafına ən müasir silahlar və texnika ilə təchiz olunmuş müxtəlif növ qoşun hissələri cəmləşdirilirdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasəti Heyəti tərəfindən yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verilsə də, öz istiqlal mübarizəsinə qalxmış, konstitusion hüquqlarını tələb edən xalqı qəflətən yaxalamaq, ona qanlı divan tutmaq, qırğın törətmək məqsədiylə fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Çünki fövqəladə vəziyyətin, komendat saatı vaxtının öncədən elan edilməsi SSRİ rəhbərliyinin planlarını poza bilərdi (6, 1).

"Bakı əməliyyatı"nın həyata keçməsinə SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Əməliyyatı öz ölkəsinin bir hissəsinə qarşı Sovet ordusu həyata keçirdi. Əməliyyatda  xüsusi təlim görmüş, xüsusi hazırlıqlı müxtəlif qoşun hissələri iştirak edirdi. Əməliyyatda ağir hərbi texnikadan, gözyaşardıcı qazdan, müxtəlif növ silahlardan istifadı olunurdu (4).

Silahsız adamlar, qaçıb müxtəlif sığınacaqlarda gizlənmiş insanlar döyüş texnikasının projektorları vasitəsilə tapılır, atəşə tutulurdular. Günahsız adamlar – qocalar, qadınlar, uşaqlar yoldan keçənlər belə öldürülürdü.

Vəhşiləşmiş, gözünü qan örtmüş xüsusi təyinatlı bu ordu adamları ağır hərbi texnikanın altına almaqdan belə çəkinmirdilər. Hətta azğınlaşmış bu əsgərlər tibb müəssisələrindən yaralıların köməyinə gələn, meyitləri, cəsədləri yığmağa gələn tibbi heyətə mane olurdular.

Beləliklə, "Bakı əməliyyatı" adı altında həyata keçirilən 20 yanvar qırğını zamanı Bakıda və Respublikanın digər yaşayış məntəqələrində Sovet ordusunun təcavüzü nəticəsində 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər itgin düşmüşdür. Öldürülənlər işərisində 12-13 yaşlı uşaqlardan tutmuş, 73 yaşlı qocalar da var idi (7, 1).

Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təşkil olunmuş yığıncaqda çıxış edərək, SSRİ rəhbərliyinin Azərbaycana və onun vətəndaşlarına qarşı görünməmiş cinayət törətdiklərini bildirməklə o, xalqla birgə olduğunu nümayiş etdirdi. 20 yanvar faciəsinə siyasi qiymət verdi. Çıxışında Heydər Əliyev bildirdi: "Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm" (8, 1).

XX əsrin ən dəhşətli faciələrindən sayılan Bakı faciəsinin tarixi-siyasi köklərinin araşdırılmasına münasibət qərəzli və ədalətsiz, vətəndaş hüquqlarına zidd xarakter daşıyırdı. Qərbin dövlət və hökümət rəhbərləri Bakıda baş verən 20 yanvar faciəsinə, bu faciənin tarixi, siyasi köklərini araşdırmadan, hadisənin başvermə səbəblərini öyrənmədən münasibət bəsləyir, ədalətsiz, hümanizmə zidd fikirlər söyləyirdilər.

Onu da qeyd etmək lazımdır ki, Bakıda, bütünlükdə 80-cı illərin sonunda Azərbaycanda başlayan ictimai-siyasi hadisələr haqqında Qərb ölkələrində, eləcə də dünyanın bir çox bölgələrində yanlış, qərəzli, antiazərbaycan xarakteri daşıyan məlumatların yaranmasında, formalaşdırılmasında SSRİ-nin mərkəzi mətbuatının və digər kütləvi informasiya vasitələrinin, habelə dünyanın bir çox ölkələrində öz mövqelərini, öz mənfur siyasətləri ilə möhkəmləndirmiş erməni lobbilərinin rolu mühüm olmuşdur. Qərb ölkələrində, xüsusilə, ABŞ-da, Fransada, İngiltərədə və digər dövlətlərdə fəaliyyət göstərən "Daşnaksütyun" partiyasının ideoloqlarının və Sov.İKP MK-nın rəhbərlik etdiyi sovet mətbuatı erməni kilsəsinin təhriki ilə dünya ictimaiyyəti arasında Azərbaycana zidd olan, Azərbaycanın ictimai-siyasi mövqeyinə zərbə vuran səviyyədə yanlış, həqiqətə uyğun olmayan məlumatlar yayır, Qərbdə fəal antiazərbaycan təbliğatı aparırdılar (9, 1).

1988-ci ilin fevralında Sumqayıtda ermənilərin öz əli ilə törədilmiş hadisədən bir gün sonra, bu hadisəyə həsr olunmuş filmin Parisdə və digər iri mərkəz şəhərlərində televiziya vasitəsilə yayımlanması faktı Azərbaycana qarşı ideoloji və informasiya müharibəsinin başlanmasını göstərirdi.

Qərbin xüsusi xidmət idarələri tərəfindən bu vasitədən sonrakı illərdə də, xüsusilə 20 yanvar ərəfəsində və günlərində Azərbaycana qarşı istifadə edildi,

20 yanvar qırğınının əsl tarixi, ictimai-siyasi kökləri gizlədildi, dünya ictimaiyyətinə isə yanlış, iftira dolu məlumatlar verməklə, ictimai şüura açıq-aşkar ideoloji təsir göstərirdilər. Bununla SSRİ və ermənipərəst Qərb mətbuatı, kütləvi informasiya vasitələri Azərbaycanın və "azərbaycanlının mənfi obrazını yaratmağa çalışır, onları qaniçən, qorxulu düşmən kimi təbliğ etməkdən çəkinmirdilər". Bununla da onlar bütün dünya ictimaiyyətinin ümumi rəyini Ermənistanda və Dağlıq Qarabağ Muxtar Vilayətində türkdilli əhaliyə qarşı etnik təmizləmənin "qanunauyğun və haqlı" olması barədə fikir hazırlamaq planını həyata keçirmiş olurdular. Sumqayıt hadisələri və 20 yanvar qırğını Moskva tərəfindən görülən məcburi tədbir kimi qələmə verilir və Qərb dünyasında SSRİ-nin daxili işi kimi qiymətləndirilirdi (9, 2).

20 yanvar faciəsi günlərində də qərbin aparıcı qüvvələri, dövlət rəhbərləri həqiqəti müəyyənləşdirməyə, cinayətin səbəblərinin öyrənilməsinə, onu törədənlərin aşkarlanmasına heç cəhd də göstərmədilər, əksinə SSRİ rəhbərliyinin, xüsusilə də, M.Qorbaçovun dağıdıcı, SSRİ-nin çökməsini sürətləndirən siyasətini dəstəkləməklə, ona haqq qazandırırdılar. Hətta onlar M.Qorbaçovun siyasətinin əsas istiqamətlərindən olan milli münaqişələrin törədilməsini dolayısı yolla müdafiə edirdilər. Çünki Qərb rəhbərləri yaxşı bilirdilər ki, Qorbaçovun bu siyasəti, xüsusilə, SSRİ-də türkdilli əhaliyə qarşı şovinist siyasət, SSRİ-nin iflasını sürətləndirir.

Təhlillər göstərir ki, M.Qorbaçovun yeritdiyi bu siyasətin Qərbdə himayə edilməsinin başlıca səbəbi, bu siyasətin "soyuq müharibə"də SSRİ-nin rəqiblərinin mənafelərinə və kapitalizm dünyasının strateji məqsədlərinə tamamilə uyğun gəlməsi idi.

"Soyuq müharibə" siyasətində və ayrılıqda götürdükdə isə Qafqaz, o cümlədən, Azərbaycan Qərbin coğrafi-siyasi maraqlarına daxil deyildi.

ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri Z.Bjeziinskinin etirafına görə, 80-ci illərin sonu - 90-cı illərin əvvələrində ABŞ Qafqaz regionunu özünün maraq dairəsinə daxil etməklə ciddi səhfə yol vermiş, onların böyük strateji əhəmiyyətinə etinasızlıq göstərmişdir.

Məhz elə bu baxımdan da 20 yanvar faciəsinə ABŞ Dövlət Departamentinin verdiyi qiymət yalnış olmuşdur. Departamentin nümayəndəsi Marqaret Tafuayler ABŞ hökuməti adından verdiyi bəyanatda bildirirdi ki, 20 yanvar hadisəsi ilə bağlı ABŞ Azərbaycanı dəstəkləmir və Bakıda baş vermiş yanvar hadisəsini şərh etmək istəmir. Əlbəttə, bu siyasət M.Qorbaçovu dəstəkləməklə yanaşı, onlar 20 yanvar faciəsini M.Qorbaçovun Azərbaycanlılarla ermənilər arasında silahlı toqquşmanın dayandırılmasına yönəldilmiş hadisə hesab edirlər (9, 3).

Böyük Britaniyanın və İtaliyanın xarici işlər Nazirliyi də öz bəyanatlarında Bakıda törədilmiş qırğını "SSRİ- nin daxili işi" kimi dəyərləndirmişlər. Onların fikrinə görə, guya Sovet rəhbərliyi "Bakı əməliyyatı"nı daxili sabitliyi təmin etmək, milli münaqişələri aradan qaldırmaq üçün həyata keçirmişdir. Türkiyə, Pakistan, Özbəkistan, Qazaxıstan, Ərəb ölkələrinin, İranın dövlət və

hökumət rəhbərləri, bir çox beynəlxalq təşkilatlar, o cümlədən, İstanbulda fəaliyyət göstərən Avrasiya Fondunun rəhbərliyi isə Azərbaycanda törədilən 20 yanvar faciəsinin Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədiyini, həmin müdhiş gecədə həlak olan şəhidlərin türk dünyası tarixinin parlaq səhifəsini yazdıqlarını bildirdilər.

Onlar qeyd etdilər ki, 20 yanvar Bakı faciəsi tarixdə yalnız faciə deyil, həm də ümid, inam və qələbə günləri kimi qalacaqdır. 1990-cı il yanvarın 20-də Sovet qoşunları tərəfindən öz müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan Azərbaycan xalqına divan tutulsada, onun haqq səsinin dünyaya yayılması üçün bütün iyrənc vasitələrə əl atsa da, onlar buna nail ola bilməmişdir (2, 2).

Beləliklə, həmin dövrdə Sovet rəhbərliyinin, onun mətbuat orqanlarının Moskvanın himayə etdiyi erməni mürtəce qüvvələrinin səyləri ilə Bakı 20 yanvar faciəsinin törədilmə səbəblərini, öz məqsədlərini ört-basdır edə bildilər və özlərinin məkrli siyasətlərinin "ədalətli" olduğuna qərbi hazırladılar və bununla da Azərbaycanda baş verən 20 yanvar qırğını barəsində Konstitusiyaya zidd hərəkətlərinə görə dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən gözlənilən hər hansı sanksiyaların tətbiq edilməsinin və ya bu hadisənin pislənməsinin qarşısını ala bilmişlər. Deməli, cəzasız qalacağına tam əmin olan M.Qorbaçovun 1990-cı ilin yanvarın 20-də Azərbaycana qoşun yeridərək, silahsız dinc əhaliyə qəddarcasına divan tutması, qırğın törətməsi ilk illərdə qərb ölkələrində düzgün dərk olunmamışdır.

Öz mənfur siyasətinə arxayın olan, bir çox dünya ölkələrindən dəstək alan SSRİ rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə qalxmış, mərkəzin milli siyasəti ilə razılaşmayan, xalqa divan tutmaq yolunu seçdi. Sovet ordusunun iri kontingentinin, xüsusi təyinatlı bölmələrin və SSRİ DİN-in daxili qoşunlarının "Bakı əməliyyatı"na cəlb edilməsi xüsusi amansızlıq və görünməmiş vəhşiliklə müşayiət olunurdu.

Azərbaycan xalqının iradəsini qırmaq, onun milli ləyaqətini alçaltmaq, digər milli respublikalara ibrət dərsi vermək, həmçinin kommunist cəza maşınının gücünü nümayiş etdirmək məqsədilə törədilmiş "Bakı əməliyyatı" əsl hərbi təcavüz idi.

Totalitar kommunist rejiminin XX əsrdə həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan bu təcavüz, təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə və humanizmə qarşı ən ağır cinayət idi. Maraqlı odur ki, bu cinayəti törədənlər cəzalarını almadılar. Biz inanırıq ki, cinayətkarlar nə vaxtsa gec-tez cəzalarını alacaq və tarix qarşısında, Azərbaycan xalqı qarşısında məsuliyyət daşıyacaqlar.

Bəlli olan reallıq ondan ibarətdir ki, 20 yanvar Bakı qırğınına görə Sovet rəhbərliyi ilə yanaşı Azərbaycanın keçmiş rəhbərləri də bu cinayətdə iştirakçı olmuşlar (8, 2).

Hadisənin təhlili göstərir ki, hakimiyyət rəhbərləri biləəkdən xalqın iradəsinə qarşı çıxmış, Moskvanın göstərişlərini kortəbii olaraq yerinə yetirmiş, hadisələrin məlum olan nəticələrə gəlib çıxacağını gözləməmişlər.

Araşdırmalar göstərir ki, respublika rəhbərliyi yanvar ayı ərzində respublikada gedən prosesləri izləyə və dərk edə bilməmişlər, xalqın və respublikanın mənafeyini, Azərbayacanın ərazi bütövlüyünün qorunmasını müdafiə etmək əvəzinə, Azərbaycanda, xüsusilə də Bakıda cərəyan edən hadisələr haqqında Moskvaya qərəzli məlumatlar vermiş və müvafiq göstərişlər alaraq, bunları Moskvadan xüsusi tapşırıqlarla Bakıya gəlmiş emissarların ciddi nəzarəti altında həyata keçirmişlər.

Təhlillər göstərir ki, Azərbaycanın dövlət və hökumət rəhbərləri, hüquq-mühavizə və digər güc orqanları da 20 yanvar qırğınının qarşısını almaq üçün qətiyyətsizlik, fəaliyyətsizlik göstərməklə, gözləmə mövqeyi tutmuşlar. Nəticədə öz vətəninin, torpağının, şərəf və ləyaqətinin müdafiəsinə qalxan xalq təcavüzə, qırğına məruz qalmışdır. Günahsız insanların, qocaların, qadınların, uşaqların qanı tökülmüşdür.

20 yanvar faciəsi bir daha göstərdi ki, respublikada müxtəlif qrupları təmsil edən "xadimlərin" populizmi, siyasi naşılığı, iddialığı, lovğalığı onunla nəticələndi ki, xalqımız XX əsrdə növbəti dəfə amansızcasına aldadıldı.

Bakı faciəsinin ibrət dərsləri bir daha bizdən tələb edir ki, biz keçmişin ibrət dərslərini yaddan çıxarmamalıyıq, milli toqquşmaların güclənib faciəyə çevrilməsinin səbəb-nəticə əlaqəsini dərindən dərk etməliyik, xalqın öz milli, siyasi və mənəvi hüquqları, azadlığı, istiqlalı uğrunda mübarizəsində zaman, tarixi şəraitin həlledici rolunu düzgün qiymətləndirəcək.

Bakı faciəsi Azərbaycanda xalq ilə hakimiyyət arasında dərin uçurum olduğunu açıb göstərdi. Məlum oldu ki, həmin dövrdəki respublika rəhbərlərinin fəaliyyəti xalqa, vətənə xəyanət və cinayət xarakteri daşımış, onların milli-mənəvi dəyərləri hissləri xalqdan çox uzaq olmuşdur. Çox zaman ümummilli ideyalar sönük, bəzən də saxta vətənpərvərliklə, subyektiv mülahizələrlə, şəxsi iddialarla əvəzlənmişdir.

20 yanvar faciəsi bir daha göstərdi ki, tarixi dönüş məqamında ölkədə milli lider güclü, müdrik, uzaqgörən siyasətçi olmaqla yanaşı milli dəyərləri yüksək olmalıdır.

Onun idarəçilik təcrübəsi, siyasi uzaqgörənliyi, təşkilatçılq bacarığı xalqı öz arxasınca, lazımi istiqamətə apara bilsin, qantökmədən, yersiz qurbanlar, itgilər vermədən qarşıya qoyulmuş məqsədə çatmağa imkan yaratsın.

Lakin o vaxtlar qeyd olunan keyfiyyətlərə malik olan, xalqın inamını qazanmış Heydər Əliyev isə Sovet rəhbərliyinin ciddi nəzarəti altında idi və Moskvanın xüsusi xidmət idarələri tərəfindən təqib olunurdu.

20 yanvar faciəsi Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə tarixində yeni səhifə açdı. Həmin gün öz vətəninin, xalqının azadlığını, şərəfini, ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçdilər, şəhidlik zirvəsinə ucaldılar.

Sovet rəhbərliyi qanlı əməlləri ilə Azərbaycan xalqının azadlıq hərəkatını boğa bilmədi, 20 yanvar faciəsi Azərbaycan xalqını müstəqillik uğrunda daha sıx birləşdirdi, müstəqilliyə gedən yolu daha da yaxınlaşdırdı.

Bu faciə bir daha göstərdi ki, çökməkdə olan imperiyanı xilas etmək mümkün deyil, Azərbaycanın suverenliyinin, müstəqilliyinin yolu yalnız imperiyanın tərkibindən çıxmaq və xx əsrin 20-ci ilində itirilmiş müstəqilliyini bərpa etməkdir. Bu baxımdan 20 yanvar faciəsi Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasında dönüş, irəliləyiş məqamı kimi dərk olunmalıdır. Həmçinin bu faciə Azərbaycanda milli azadlıq hərəkatını siyasi reallığa çevirdi.

20 yanvar faciəsindən keçən illərin təcrübəsi göstərdi ki, düşmənlərimizin xalqımıza, torpaqlarımıza, ən nəhayət müstəqilliyimizə qarşı yönəlmiş məkrli niyyətlərinin mürtəci hücumlarının qarşısını almaq üçün, güclü hüquqi, demokratik dövlət qurmaq, onun iqtisadi və siyasi təhlükəsizliyini təmin etmək üçün ölkədə sabitliyi təmin etmək, ölkə vətəndaşlarını ümummilli ideya ətrafında birləşdirmək, uğurlu, çevik xarici və iqtisadi-siyasət yeritmək olduqca zəruridir.

**ƏDƏBİYYAT**


1. Ramiz Mehdiyev 1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciəsinin tarixi və sosial-siyasi kökləri məsələsinə dair. "Azərbaycan" qəzeti, 2000-ci il, 1 mart.
2. Azərbaycan tarixi 7 clddə, VII c. Bakı: Elm. 2003, 676 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2005, 528 s.
4. Əliyev H.Ə. Müstəqillik yolu. Bakı, Azərnəşr. 1997. 546 s.
5. "Azərbaycan" qəzeti, 2006, 22 yanvar.
6. "Azərbaycan" qəzeti, 2011, 25 yanvar.
7. Черный январь. Баку-1990. Bakı, Azərnəşr, 1990, 288 s.
8. "Azərbaycan" qəzeti, 2006, 20 yanvar.
9. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (ombudsmanın) 1990-cı il 20 yanvar faciəsinin 15-ci ildönümü ilə əlaqədar bəyanatı. "Xalq qəzeti", 2005, 19 yanvar.
10. Zeynalov İ.X Azərbaycanın sosial – iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2004, 326 s.


## ДЕМОКРАТИЯ В СОЧЕТАНИИ С НАСИЛИЕМ НЕ СОВМЕСТИМЫ


**И.Х.ЗЕЙНАЛОВ, Х.САФАРОВА**


**РЕЗЮМЕ**


Данная научная статья богата исследованиями, материалами, документами и соответствующими фактами:

- причина и пути решения трагедии в Баку;
- трагедия 1990 года 20 января в Баку и его политика;
- 1990 год 20 января - операция в Баку и его итоги;
- отношения западных государств к трагическим событиям 20 января;
- роль Г.Алиева в оценке трагедии 20 января как преступление против азербайджанского народа и заявлении всему миру об этой трагедии.

**Ключевые слова:** Черный январь, Советская империя, армянская агрессия, «Операция Баку» Москвы, «Бакинская трагедия», предвзятая политика, руководство СССР, Западные страны, «Внутренняя политика СССР, Советская армия, поучительный урок.

## DEMOCRACY AND VIOLENCE ARE INCONGRUOUS

**I.Kh.ZEYNALOV, Kh.R.SEFEROVA**

**SUMMARY**

The article refers to materials, sources and documents dealing with:
Causes and ways of settlement of the tragedy in Baku
Baku tragedy of January 20, 1990 and its policy, operation in Baku on January 20, 1990 and its results.
Western States' policy on blody events of January 20, 1990.
January 20 tragedy of the Azerbaijani people and Heydar Aliev's attitude.

**Key words**: Black January, the Soviet Empire, Armenian aggressionç Moskow's "Baku Operation", "Baku tragedy", pre-taken policy, government of USSR, Western states, "Domestic affairs of USSR", Soviet army, learned lessons.